

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 33 (23.195)

15 fevral 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## N.F.Babayevin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nicat Fəxrəddin oğlu Babayev Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 fevral 2019-cu il*

## Arıçılığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir

*Muxtar respublika iqtisadiyyatının gücləndirilməsində və əhalinin özünüməşğulluğunun təmin olunmasında mühüm rol oynayan arıçılığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.*

Ötən dövrdə bu sahə üzrə müxtəlif tədbirlər, o cümlədən beynəlxalq və yerli əhəmiyyətli elmi-praktik konfranslar keçirilmiş, sahibkarlar pulsuz dərman preparatları ilə təmin edilmişlər. Təkcə 2018-ci ildə arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə 336 min 600 manat məbləğində kredit verilmiş, 6 arıçılıq təsərrüfatı və arı yeşiyi, çərçivə (pətək) istehsalı sahəsi yaradılmışdır. Ümumilikdə, son beş ildə təsərrüfat subyektlərinə 1 milyon 778 min 300 manat kredit verilmişdir.

Arıçılıq təsərrüfatlarının fəaliyyətini əlaqələndirmək, arıçıların rastlaşdıqları problemlərin vaxtında həllinə nail olmaq məqsədilə "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyi yaradılmışdır. Muxtar respublikanın əlverişli təbii iqlim şəraiti, zəngin yem ehtiyatları bazası da bu sahənin inkişaf etdirilməsinə geniş imkanlar açmışdır.

Muxtar respublikada 2016-cı ildən başlayaraq "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi və festivalda Ali Məclis Sədrinin iştirakı, arıçılarla görüşməsi, onların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması arıçılıq məhsullarının istehsalının artmasına və istehsal olunan məhsulların satışına müsbət təsir göstərmişdir.

Arıçılığın inkişafı istiqamətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nda qarşıya qoyulan hədəflərə nail olmaq üçün həyata keçirilən mühüm tədbirlər yerli və ənənəvi arı cinslərinin yetişdirilməsinə, arı ailələrindən yüksək məhsul götürülməsinə, arıçıların dövlət maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə, arıçılıq məhsullarının ixracının stimullaşdırılmasına, muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan yaradır.

Arıçılığın inkişafı üzrə aparılan tədbirlər öz nəticəsini vermiş, 1 yanvar 2019-cu il tarixə muxtar respublikada 72 min 350 arı ailəsi mövcud olmuşdur ki, bu da 2008-ci ilin sonu ilə müqayisədə 2,5 dəfə çoxdur.

***Arı ailələrinin sayı***




2018-ci ilin sonuna ümumi arı ailələrinin 9178-i Şərur, 10540-ı Babək, 13745-i Ordubad, 13897-si Culfa, 1642-si Kəngərli, 20547-si Şahbuz, 667-si Sədərək rayonlarının, 2134-ü isə Naxçıvan şəhərinin payına düşmüşdür.

Arı ailələrinin artımı məhsul istehsalına da müsbət təsir etmiş, 2018-ci ildə muxtar respublikada 1448 ton bal istehsalı qeydə alınmışdır. Bal istehsalı 2008-ci illə müqayisədə 3,3 dəfə artmışdır.

Arıçılığın inkişafı istiqamətində həyata keçirilən digər mühüm tədbir kimi 2018-ci ildən başlayaraq bu sahə ilə məşğul olan hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların nəzərdə tutulması məhsul istehsalının həcmini daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Mərasim evləri inşa olunur




*Muxtar respublikamızda həyatın bütün sahələrini əhatə edən genişmiqyaslı quruculuq işləri, ilk növbədə, insanların rahat yaşamasına və firavanlığına hesablanıb. Təqdirəlayiq hallardan biri isə son illərdə bölgələrimizdə hərtərəfli şəraitə malik mərasim evlərinin inşa olunmasıdır.*

Qeyd etmək lazımdır ki, əvvəllər insanlar yas mərasimlərini keçirərkən məişət çətinlikləri ilə üzləşir, ilin yağıntılı dövrlərində qayğılar daha da çoxalırdı. Lakin bu xeyirxah addımdan sonra vəziyyət köklü surətdə dəyişilib. İndi ilin bütün fəsillərində yas mərasimləri şəriət qaydalarına uyğun rahat şəkildə həyata keçirilir.

Muxtar respublikanın ən böyük rayonlarından sayılan Şərurda da mərasim evlərinin tikintisi diqqətdə saxlanılır. Belə ki, ötən dövr ərzində rayonun Qarahəsənli, Arbatan, Zeyvə, Ərəbyengicə, Xanlıqlar, Muğanlı, Tumaslı kəndlərində yeni mərasim evləri tikilərək kənd sakinlərinin istifadəsinə verilib. Hazırda rayonun Qorçulu, Siyaqut, Qarxun, Sərxanlı, Püsyan, Muğancıq-Müslüm, Xanlıqlar kəndlərində mərasim evlərinin inşası aparılır.

Onu da xatırlatmaq yerinə düşər ki, muxtar respublikada yas və dəfn mərasimlərinin dinimizin qaydalarına uyğun şəkildə keçirilməsi ölkə səviyyəsində nümunə hesab edilir. Şərur rayonunda da bu qaydalara ciddi əməl olunur.

**✍ Nail ƏSGƏROV**

*Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Sənayenin inkişafına göstərilən bu diqqət ölkəmizin müxtəlif iqtisadi regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında həmin sahənin inkişafına şərait yaradıb.*

## Sənaye məhsullarının həcmi ixracatda mühüm yer tutur

Hər şeydən əvvəl, vurğulamaq lazımdır ki, sənayenin inkişafı xammala əsaslandığından, bu xammaldan istifadə imkanları, o cümlədən emalı, daşınması, yeni məhsulun istehsalında yararlılıq faizi əsas amillərdən hesab olunur. Muxtar respublikanın ötən əsrin 90-cı illərindən blokada vəziyyətinə salınması sənaye infrastrukturunun yaradılmasında çətinliklər törətsə də, qarşıya qoyulmuş məqsədyönlü tədbirlər nəticəsində bu sahənin inkişafı təmin edilib. Təsadüfi deyil ki, təxminən, son 20 il ərzində muxtar respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilib, mövcud müəssisələrin fəaliyyətlərinin bərpası və yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Görülmüş işlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, qənnadı, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılıb. Son illərdə sənaye sahələrinə böyük investisiyaların qoyulduğu müəssisələrin fəaliyyəti nəticəsində məhsul istehsalının həcmi də artıb. Bu isə, öz növbəsində, muxtar respublikanın ümumi daxili məhsul istehsalında sənaye məhsullarının həcmini dəfələrlə yüksəldib. Sənaye məhsulları həcminin artım dinamikasına nəzər yetirsək, görərik ki, 2016-cı ildə muxtar respublikada istehsal olunan məhsulların həcmi 942 milyon manatdan çox olub. Bu, 1995-ci illə müqayisədə 103, 2000-ci illə müqayisədə isə 69 dəfə çox deməkdir. 2017-ci ildə isə 967 milyon 60 min manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da bir il öncəki göstəricini 1,4 faiz üstələyir. Həmin dövrdə sənaye məhsulu istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşüb. Sənayenin dövlət sektorunda 49 milyon 878 min 900, qeyri-dövlət sektorunda isə 917 milyon 181 min 100 manatlıq məhsul istehsal olunub. İstehsal olunan sənaye məhsulunun 94,8 faizi özəl sektorun payına düşüb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin açıqladığı məlumata görə, həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq 2018-ci ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 2 milyard 773 milyon manatdan artıq olub ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsul isə bir il öncəyə nisbətən 1,9 faiz artaraq 6101,3 manata çatıb. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlə sənaye tutub və maddi istehsalın payı 58,6 faiz təşkil edib. 2017-ci illə müqayisədə 2018-ci ildə sənaye məhsulu 1,3 faiz artıb. Eyni zamanda bunu da qeyd edək ki, 2018-ci ildə muxtar respublikada 990 milyon 67 min manat dəyərində sənaye məhsulu istehsal olunub. İstehsal dinamikasına nəzər salsaq, görərik ki, 2014-cü ildə muxtar respublikada 891 milyon 486 min 400, 2015-ci ildə 916 milyon, 817 min 900, 2016-cı ildə 942 milyon 944 min 400, 2017-ci ildə isə 967 milyon 60 min manatlıq sənaye məhsulu istehsalı qeydə alınıb.

Digər tərəfdən yeni sənaye müəssisələrinin yaradılmasına göstərilən dövlət dəstəyi əvvəlki illərdə olduğu kimi, ötən il də davam etdirilib. Belə ki, 2018-ci ildə bu sahənin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 5 milyon 172 min manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 9,1 dəfə çoxdur.

Vurğulamaq lazımdır ki, bu gün dünya iqtisadiyyatındakı ixrac-idxal əməliyyatlarında sənaye məhsullarının həcmi ön sırada dayanır. Buna görədir ki, inkişaf etmiş ölkələr bu təsnifatda, həm də sənaye ölkələri kimi tanınır. Sənaye ölkələri isə daim yeniliklər edən, insanların tələbatını ödəyən, davamlı olaraq inkişaf edən ölkə imicini qazanır. Sevindirici haldır ki, muxtar respublikada sənaye məhsulları istehsalının həcmi də ildən-ilə yüksəlir və bu da, öz növbəsində, belə məhsulların ixracını artırır.

Statistikaya görə, 2017-ci ildə 321 milyon 841 min 600 ABŞ dolları dəyərində məhsul ixrac olunub. 2018-ci ildə isə ixrac olunan sənaye məhsullarının həcmi 322 milyon 485 min 300 ABŞ dolları təşkil edib. Bu rəqəm həm də onun göstəricisidir ki, muxtar respublikada sənaye məhsullarının istehsalı və ixracın artması davamlı xarakter daşıyır.

**✍ Səbuhi HƏSƏNOV**

## Meyvə əkinlərinin sahəsi artıb

Muxtar respublikamızın torpaq-iqlim şəraiti və qədim təsərrüfatçılıq ənənələri burada bol meyvə-tərəvəz yetişdirilməsi üçün olduqca əlverişli imkan yaradır. Bu sahənin inkişafına dövlətin hərtərəfli qayğısı sayəsində əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatını daxili imkanlar hesabına ödəmək məqsədilə zəruri tədbirlər həyata keçirilib, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası uğurla başa çatdırılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib, yerli şəraitə uyğun məhsuldar sortların əkilməsi, mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması, bu sahəyə dövlət dəstəyinin, daxili və xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi əsas vəzifələr kimi müəyyənləşdirilib.

Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin davamlı inkişafı təmin olunub, əkin sahələri genişləndirilib, müvafiq sahələr üzrə məhsuldarlıq yüksəlib.

2018-ci il ərzində Naxçıvan şəhəri üzrə 5, Şərur rayonu üzrə 12, Babək rayonu üzrə 16, Ordubad rayonu üzrə 5, Culfa rayonu üzrə 5, Şahbuz və Sədərək rayonlarının hər



biri üzrə 2 hektar daşlı və çınqıllı ərazi abadlaşdırılaraq su xətti ilə təmin edilib, həmin ərazilərdə yeni meyvə və üzüm bağları salınıb. Nəticədə, 2017-ci illə müqayisədə çoxillik əkmələrin sahəsi 47 hektar artırılaraq 1673 hektara çatdırılıb ki, bunun da 1424 hektarı meyvə bağları, 249 hektarı isə üzümlüklərdir. Müqayisə olunan dövrdə meyvə əkinlərinin sahəsi 37 hektar, üzümlüklərin sahəsi isə 10 hektar artıb.

Ötən il torpaq mülkiyyətçiləri arasında maarifləndirici tədbirlərin keçirilməsi də diqqətdə saxlanılıb, Şərur rayonunun 8, Babək rayonunun 5, Şahbuz rayonunun 5, Culfa rayonunun 4, Ordubad rayonunun 3, Kəngərli rayonunun 3 bələdiyyəsinin torpaqlarının qida maddələri ilə təmin olunmasına dair yeni kartoqramları hazırlanaraq müvafiq bələdiyyələrə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Naxçıvan Muxtar Respublikasının hərtərəfli tərəqqisini özündə əks etdirən, inkişaf və quruculuğun daha bir ünvanı olan Şərur bu gün yüksəlişinin yeni mərhələsindədir. Son illərdə rayonun siması xeyli dəyişib, çoxsaylı sosial obyektlər, xidmət şəbəkələri, irili-xırdalı istehsal və emal müəssisələri fəaliyyətə başlayıb, yollar, körpülər salınıb, meliorasiya qurğuları istismara verilib.*

*Müasirləşən bölgələrimiz*

# Şərurda bütün sahələrdə mühüm nailiyyətlər əldə edilib

## *Rayonda yeniləşmə ruhu hakimdir, insanlar sabahlarının bu gündən daha yaxşı olması üçün qüvvələrini əsirgəmirlər*

İcrasına xüsusi diqqət və tələbkarlıqla yanaşılan və sosial-iqtisadi inkişafı nəzərdə tutan dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bütün bölgələr kimi, Şərurda da yeniləşmə ruhu hakimdir, insanlar böyük həvəslə qurub-yaratmaq, abadlaşdırmaq istəyirlər, sabahlarının bu gündən daha yaxşı olması üçün qüvvələrini əsirgəmirlər. Ümumiyyətlə, muxtar respublikamızda iqtisadi potensialın hərtərəfli inkişafının təmin edilməsi, sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, əhalinin məşğulluq səviyyəsinin təmin olunması istiqamətində həyata keçirilən tədbirlər bu qədim bölgəni də ağuşuna alıb.

Hər il yüzlərlə yeni iş yerləri yaradılır, məhsul istehsalı ilbəil artır, xidmət təşkilatlarının fəaliyyətləri genişləndirilir, bu hesaba da əhalinin həyat səviyyəsi xeyli yüksəlir.

Ötən il rayonda kənd təsərrüfatı, tikinti, ticarət, sənaye, nəqliyyat, poçt və rabitə xidmətləri sahələrindəki göstəricilər əvvəlki ili üstələyir. Dövlətin göstərdiyi diqqət və qayğıdan bəhrələnən sahibkarların da bu sahədə xidmətləri çoxdur. Əhali gəlirlərinin artması ilə əlaqədar çoxsaylı fərdi yaşayış evləri, yardımçı binalar tikilib, rayonda infrastruktur daha da gücləndirilib.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar açıb, bunun nəticəsi olaraq il ərzində 516 yeni iş yeri yaradılıb ki, bunun da 505-i daimi iş yeridir.

Ötən ilin makroiqtisadi göstəriciləri rayonun həm iqtisadi, həm də sosial sahələrinin daha dinamik və sürətlə inkişaf etdiyini göstərir. Hər şeydən əvvəl, onu qeyd edək ki, son illər rayonda iş üslubu və metodları, təşkilat-idarəetmə məsələləri daha da təkmilləşdirilib, sakinlərlə aparılan iş ön plana çəkilib, əmək və icra intizamı diqqət mərkəzində saxlanılıb, bu sahədə ardıcıl və sistemli tədbirlər həyata keçirilib. Başlıca diqqət qarşıya qoyulan vəzifələrin, verilmiş göstəriş və tövsiyələrin uğurla yerinə yetirilməsinə yönəldilib.

Naxçıvana səfərləri zamanı ölkə başçısının muxtar respublikada görülmüş işlərə verdiyi yüksək qiymət, işlədiyi sahədən asılı olmayaraq, hər bir kəsi daha səylə və fədakarlıqla çalışmağa ruhlandırıb. Bütün bunlar isə öz ifadəsini əldə edilmiş nəticələrdə göstərir.

Sosial obyektlərin tikintisi ötən il də davam etdirilib. Belə ki, Ərəbyengicə, İbadulla və Kosacan kəndlərində tam orta məktəb binaları, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası, Ələkli kəndində asfalt-beton zavodu, İbadulla Radio-Televiziya Verici Stansiyası üçün inzibati bina tikilib, Şərur şəhərini və ətraf kəndləri əhatə edən içməli su şəbəkəsinin və kanalizasiya sisteminin birinci və ikinci hissələri istismara verilib. Yengicə kəndində Şərq hamamı bərpa olunub, Şərur şəhərinin Heydər Əliyev prospektindəki 60 mənzilli və Kapitan Seyidov küçəsindəki



40 mənzilli yaşayış binalarının əsaslı təmiri başa çatdırılıb, "Naxçıvan Avtomobil Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətinin texniki servis mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni bina inşa olunub. Kərimbəyli kəndində aparılan sosial obyektlərin inşası başa çatdırılaraq cari ildə istifadəyə verilib. Hazırda Yeni Havuş və Xətai kəndləri üçün nəzərdə tutulmuş tam orta məktəb binası, kənd və xidmət mərkəzləri, Qışlaqabbas və Alışar kəndlərində kənd və xidmət mərkəzləri tikilir, Şərur şəhərinin Kapitan Seyidov küçəsindəki 9 nömrəli 24 mənzilli yaşayış binasının əsaslı təmiri başa çatdırılmaqdadır. İlin sonlarında rayonda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzil təqdim olunub, 1 Çernobıl əlilinə isə "NAZ Lifan-320" markalı minik avtomobili verilib.

Kənd mərkəzlərində inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyə qurumlarının, mədəniyyət müəssisələrinin, poçt, rabitə və baytarlıq xidmətlərinin, polis sahə müvəkkillərinin fəaliyyət göstərmələri üçün normal şərait yaradılıb. Ərazilərdə abadlıq, yaşıllaşdırma işləri də görülüb, su çəkilib, elektrik və telefon xətləri, transformator yarımstansiyaları təzələnib, yollar əsaslı şəkildə yenidən qurulub. Əhalinin həyat səviyyəsinin yaxşılaşmasının nəticəsidir ki, ötən il ərzində 26 min 757 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Ələkli kəndi ərazisindəki asfalt-beton zavodu, qum-çınqıl karxanası yol təmiri və tikinti işlərinin sürətlənməsinə imkan yaradıb. Bunun nəticəsidir ki, 2018-ci ildə Xanlıqlar-Vərməziyar-İbadulla, Qışlaqabbas-Ərəbyengicə, Çəmənli-Qarahəsənli, Siyaqut-Kosacan, Axaməd-Kərimbəyli avtomobil yollarının yenidən qurulması başa çatdırılıb.

Ümumiyyətlə, ötən il ərzində 47 müxtəlif təyinatlı obyekt tikilib, 21 obyektin tikintisi, yaxud yenidən qurulması davam etdirilir. Tikinti-quruculuq işlərində istifadə olunan investisiyanın həcmi 74 milyon 561,2 min manat təşkil edib, rayonda istehsal olunan sənaye məhsullarının həcmi əvvəlki illə müqayisədə 1,1 faiz artaraq 94 milyon 232,7 min manata çatdırılıb.



Son illər aparılan genişmiqyaslı yaşıllaşdırma tədbirləri rayonun simasını xeyli dəyişib. Ötən il də daxili imkanlar səfərbər edilməklə, yeni yaşıllıqlar və meyvə bağları salınıb. "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq iməciliklər yolu ilə 15,6 hektar sahədə yeni meyvə bağları salınıb, 26 hektar sahədə bərpa işləri aparılıb, xüsusi mülkiyyətdə olan və həyətyanı torpaq sahələrində isə 34,5 hektar meyvə bağı salınıb. Eyni zamanda rayonda üzümçülük ənənələrinin bərpası diqqət mərkəzində saxlanılıb, 6 hektar sahədə yeni üzüm bağı salınıb. Yaşıllaşdırma və bağsalma kampaniyaları çərçivəsində 18 min meyvə tingi, 5 min 600 meşə və bəzək ağacları əkilib.

"Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində 11,8 hektar sahədə tütün əkilib, 7 min 230 kiloqram quru tütün istehsal olunub.

Rayonun təbii-iqlim şəraiti və zəngin bitki örtüyü imkan verir ki, təsərrüfatın gəlirli sahəsi olan arıçılıq inkişaf etdirilsin. Hazırda burada 443 təsərrüfatda 8 min 409 arı ailəsi var və ötən il ərzində 186 ton bal istehsal edilib.

2018-ci il xidmət təşkilatlarının, o cümlədən elektrik və qaz təsərrüfatlarının inkişaf etdirilməsi, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində də xeyli iş görülüb. Qəza vəziyyətində olan elektrik dirəkləri və qaz xətləri təzələnib, itkilərin qarşısının alınması, əhalinin dayanıqlı və fasiləsiz elektrik enerjisi, qazla təmin olunması üçün zəruri tədbirlər görülüb.

Məhsuldar torpaqları olan Şərur muxtar respublikamızın iri kənd təsərrüfatı rayonlarındandır. Burada xeyli münbit torpaq, kifayət qədər suvarma suyu vardır. Hər il rayonun əkinçiləri torpağa çəkdikləri zəhmətin bəhrəsini artıqlaması ilə görürlər. Aqrar bölməyə dövlət qayğısının artması faydalı iş əmsalının daha da yüksəlməsinə səbəb olur. Rayonda bu sahənin inkişafı naminə məqsədyönlü addımlar atılır, torpaq mülkiyyətçilərinə hərtərəfli dəstək göstərilir. Buna görə də rayon iqtisadiyyatının aparıcı sahəsi olan kənd təsərrüfatında ötən il də müsbət irəliləyişlər qeydə alınıb, keyfiyyətli məhsul istehsalı üçün münbit şərait yaradılıb. Əkinçiliklə məşğul olanlara göstərilən dövlət dəstəyi bu sahəyə marağı daha da artırıb, əkinəyararlı olan 17 min 115 hektar sahədə müxtəlif kənd təsərrüfatı bitkiləri əkilib-becərilib. Rayon üzrə 13 min 861 ton taxıl, 22 min tona yaxın meyvə, 1559 ton üzüm, 32 min 246 ton tərəvəz, 6 min 589 ton bostan məhsulları, 8 min 997 ton dən qarğıdalı, 16 min 357 ton kartof istehsal olunub.

Heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılıb. Son illər mal-qaranın qaba və qüvvəli yemlərlə təmin edilməsi üçün yonca və arpa sahələri genişləndirilib, iribuynuzlu və xırdabuynuzlu heyvanların, quşların baş sayı, həmçinin ət, yun və yumurta istehsalı xeyli artıb. Hazırda rayonda 36 min 387 baş iribuynuzlu mal-qara, 129 min 654 baş xırdabuynuzlu heyvan vardır. Ötən il diri çəkidə 8 min 356,5 ton ət, 28 min 87 ton süd, 22 milyon 40 min ədəd yumurta, 191,9 ton yun istehsal edilib. Bu göstəricilər əvvəlki illə müqayisədə müvafiq olaraq 1,6 faiz, 1,4 faiz, 1,3 faiz və 1,2 faiz çoxdur.

Qazanılan uğurlarda ailə təsərrüfatlarının da rolu az deyil. Qeyd edək ki, artıq Şərurda 89 belə təsərrüfat mövcuddur və onlar öz məhsulları ilə keçirilən festivallarda iştirak edirlər. Məqsəd böyük biznesə aparan belə kiçik təsərrüfatları inkişaf etdirməkdir.

Şərurda gedən inkişaf prosesləri, əldə edilən uğurlar bu qədim bölgənin sakinlərini sevindirir, gələcəyə inam hissini daha da yüksəldir. Dövlət müstəqilliyimizin bəhrələri Şərurun hər bir guşəsində özünü bariz şəkildə göstərir. Şərur bu gün



abad yaşayış məntəqələri, yolları, bağ-bağçaları, bol məhsul verən tarlaları ilə müstəqil Azərbaycan rayonunun canlı nümunəsidir. Bu torpağın hüsnünə tamaşa etdikcə düşünürsən ki, qayğıkeş, zəhmətkeş insanların illərlə davam edən yorulmaz əməyi artıq öz əməli nəticəsini verib. Bunun ifadəsidir ki, insanların düşüncəsinə qurub-yaratmaq ruhu hakim kəsilib. Bu da, sözsüz ki, Şərurun daha gözəl sabahlarından xəbər verir. Sosial-iqtisadi uğurlar artdıqca, quruculuq, abadlıq işləri çoxaldıqca, sakinlərin həyat şəraiti də əsaslı surətdə yaxşılaşır. Bütün bunların təməlində isə ümummilli lider Heydər Əliyev ideyalarına sadiqlik dayanır.

Bəli, Şərur rayonu özünün intibah dövrünü yaşayır. Qazanılmış iqtisadi yüksəlişə, nümunəvi sosial həyat tərzinə, firavan dolanışığa görə müdrik, uzaqgörən siyasətçi, XX əsrdə xalqımıza Tanrı payı kimi bəxş olunmuş ümummilli liderimiz Heydər Əliyevi daim minnətdarlıq hissi ilə xatırlayan hər bir şərurlu gələcəyə doğru mətin addımlarla irəliləyir. Mayasında halallıq olan, bir əli torpaqdan, bir əli isə haqdan üzülməyənlərin sabahının daha nurlu olacağı şübhəsizdir.

*Rayonda sağlam mənəvi-psixoloji mühit, yaradıcı və mütəşəkkil ab-hava mövcuddur. İşlərin gedişi ilə yaxından tanışlıq belə deməyə əsas verir ki, 2019-cu il həyatın bütün sahələrində Şərur rayonu üçün daha böyük inkişaf və irəliləyiş ili olacaqdır. Çünki bölgənin hər günü, hər saatı abadlıq, yaşıllıq, yenidənqurma işləri ilə başa çatır. Elə bir dövrə qədəm qoyulub ki, artıq bu yoldan sakinləri heç nə döndərə bilməz. Bu yolun bir adı var: inkişaf yolu.*

**Elman MƏMMƏDOV**
***"Şərurun səsi" qəzetinin redaktoru***







## Naxçıvanşünaslıq Mərkəzində 2018-ci ildə nəşr olunmuş kitabların və hazırlanmış sənədli filmlərin təqdimatı olub

Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarov açaraq müstəqillik illərində Naxçıvan tarixi, mədəniyyəti və təbii sərvətlərinin öyrənilməsi sahəsində görülən işlərdən danışmış, 2018-ci ildə nəşr olunmuş kitabları və hazırlanmış sənədli filmləri bu sahəyə göstərilən dövlət qayğısı kimi dəyərləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsi olaraq alim və tədqiqatçılar, eləcə də yaradıcı insanlar üçün hərtərəfli şərait yaradılmış, avadanlıqlarla təmin olunmuş “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, eləcə də AMEA Naxçıvan Bölməsində və ali təhsil müəssisələrində mətbəələr istifadəyə verilmişdir. Yaradılan şərait imkan verir ki, hər il muxtar respublikada yeni tədqiqat materialları olan kitablar nəşr olunsun. Naxçıvanın qədim tarixi, zəngin mədəni irsi, görkəmli şəxsiyyətləri və müasir sosial-iqtisadi inkişafı barədə yeni kitabların nəşri diqqətdə saxlanılır, hər il üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisində nəşr planı tərtib olunur. Bu sahədə görülən işlər 2018-ci ildə də davam etdirilmiş, 33 kitab və buklet nəşr olunmuş, 7 sənədli televiziya filmi hazırlanmışdır.

Sahir Rüstəmov nəşr olunmuş kitablar və çəkilmiş sənədli filmlər haqqında geniş məlumat vermişdir.

Sonra yeni kitablardan və sənədli filmlərdən ibarət sərgiyə baxış olmuşdur. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 4 iyul tarixli “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” Sərəncamına uyğun olaraq Qarabağlar Türbə Kompleksi tarixi abidəsi bərpa olunmuş, türbədə geniş elmi-tədqiqat işləri aparılmışdır. Bu elmi tədqiqatların nəticəsi olaraq Azərbaycan tarixində xüsusi yeri və mövqeyi olan Qarabağlar türbəsi haqqında Azərbaycan, rus və ingilis dillərində hazırlanan “Qarabağlar Türbə Kompleksi” kitabı çap olunmuşdur. Kitabın birinci səhifəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında” 2016-cı il 4 iyul tarixli Sərəncamının mətni yerləşdirilib. 6 məqalə, 1 şeir, ədəbiyyat siyahısı və 33 fotoşəkildən ibarət olan kitabda Şərqin incisi, dünya əhəmiyyətli abidə olan Qarabağlar Türbə Kompleksinin tarixi, “Qarabağlar” sözünün etimologiyası araşdırılmış, Qarabağlar türbəsinin memarlıq xüsusiyyətləri, türbə və onun ətrafındakı epiqrafik abidələr tədqiq olunmuş, türbə yaxınlığında olan tarix-memarlıq abidələri haqqında məlumat verilmişdir. Kitabda türbənin bərpadan əvvəl və bərpadan sonrakı şəkilləri, ayrı-ayrı hissələrinin memarlıq quruluşu yer almışdır. Kitab



Şərq mədəniyyətinin incilərindən sayılan Qarabağlar türbəsi və bu qədim yaşayış məskəni haqqında məlumatları ətraflı öyrənmək baxımından qiymətlidir.

“Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 oktyabr tarixli Sərəncamına əsasən Nemətullah Naxçıvaninin “Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə” (“Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi”) əsərinin I cildinin tərcümə edilərək nəşr olunması islamşünaslığa böyük töhfədir. Təfsirdə hər surə üç hissədən ibarətdir: Kitabın əhəmiyyətli xüsusiyyətlərindən biri ayələri qısa söz və cümlələrlə təfsir etməsidir. Orijinala xələl gətirilmədən, elmi əsaslara söykənərək edilən tərcümə və tərcüməçinin bəzi mətləblərə gətirdiyi izahlar əsərin aydın şəkildə dərk olunmasına və mütaliəsinə imkan verir. Əsərin 676 səhifəlik I cildində müqəddəs kitabımızın 13 surəsi və onun ayələrinin şərhi verilib. Filosof-mütəfəkkir Nemətullah Naxçıvaninin bu təfsiri müqəddəs kitabımızdakı hikmətləri daha dərindən dərk etmək baxımından olduqca əhəmiyyətlidir. Bu nəşr Naxçıvanın İslam mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu bir daha sübut edir. Əsər Ali Məclis Sədrinin təşəbbüs və qayğısı ilə Azərbaycan xalqına yenidən qazandırılan Nemətullah Naxçıvani irsi haqqında gələcək fundamental tədqiqatlar üçün qiymətli elmi mənbədir. Yeni nəşr geniş oxucu kütləsi üçün də dəyərli bir töhfədir.

Ötən il nəşr edilmiş Naxçıvan Muxtar Respublikası Coğrafiyasının I cildi (Fiziki coğrafiya) Naxçıvan Muxtar Respublikası ərazisinin fiziki-coğrafi xüsusiyyətlərinə həsr olunmuşdur. Burada Naxçıvanın zəngin geoloji quruluşu, relyefi, iqlimi, su ehtiyatları, torpaq və bitki örtüyü, heyvanlar aləmi ən yeni elmi məlumatlar əsasında geniş şərh edilir, təbii ehtiyatların əhəmiyyəti qiymətləndirilir, bütün məlumatlar ümumiləşdirilərək Naxçıvan ərazisinin fiziki-coğrafi rayonlaşdırma sxemi təqdim edilir və ayrılmış hər bir fiziki-coğrafi sahəyə aid konkret məlumatlar verilir. Naxçıvan Muxtar Respublikası Coğrafiyasının II cildində isə (İqtisadi və sosial coğrafiya) muxtar respublikanın iqtisadi-coğrafi və siyasi-coğrafi mövqeyinin təhlili aparılmış, ərazinin formalaşmasının tarixi-coğrafi xüsusiyyətləri, təsərrüfatın inkişafının əsas mərhələləri tədqiq edilmişdir. Muxtar respublikada coğrafi adların yaranması, tarixi dövrlər ərzində dəyişməsi, onların yerli kökə malik olması faktlarla göstərilir. Həmçinin demoqrafik inkişaf, əhalinin sayı, təbii artımı, cins-yaş tərkibi, miqrasiya prosesləri tədqiq olunur. Sənaye və kənd təsərrüfatı sahələrinin inkişafının öyrənilməsi, həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sahələrdə mühüm nailiyyətlərin əldə edilməsinin təhlili kitabın elmi və praktik əhəmiyyətini daha da artırır.

“Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” kitabının yenidən nəşr edilməsi qədim diyarın başdan-başa türk-oğuz yurdu olduğunu bəyan edən elmi əsər kimi böyük əhəmiyyətə malikdir. “Kitabi-Dədə Qorqud”da adı birbaşa çəkilən toponimlərdən 60-a yaxınına Naxçıvan diyarında da rast gəlinməsi sübut edir ki, Naxçıvan ərazisi qədim oğuz torpağıdır. Beş min ildən artıq yaşı olan Naxçıvan şəhəri oğuzların ilk və əsas məskənlərindən biri olmuşdur.

Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələri dövlət qayğısı ilə əhatə olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri qeydə alınaraq pasportlaşdırılmış, tarix və mədəniyyət abidələri bərpa və tədqiq edilmişdir. 2018-ci ildə nəşr olunan “Naxçıvan hamamları”, “Naxçıvan türbələri”, “Naxçıvan imamzadələri”, “Naxçıvan buzxanaları” kitabları da bu sahədə görülən işlərin əhəmiyyətini və ardıcıllığını göstərir. “Naxçıvan hamamları” kitabında türk-islam mədəniyyəti abidələrinin özünəməxsus nümunələrindən biri olan hamamlar haqqında bəhs olunur, dövrümüzə qədər gəlib çatmış Şərq, Yengicə, Ordubad və Şahtaxtı hamamları, həmçinin 2015-ci ildə istifadəyə verilmiş Şərq hamamı, onların quruluşu, memarlıq xüsusiyyətləri, inşa tarixləri ilə bağlı geniş məlumat verilir. “Naxçıvan türbələri” kitabında orta əsr Azərbaycan memarlıq abidələri içərisində xatirə tikintiləri – türbələr və Naxçıvan memarlıq məktəbi ənənələrini özündə yaşadan və inkişaf etdirən Hüseyn Cavid məqbərəsi haqqında oxuculara məlumat verilir. “Naxçıvan imamzadələri” kitabında muxtar respublika ərazisində olan ziyarətgahlardan Nehrəm, Parçı (Xanlıqlar), Naxçıvan imamzadələri, Düylün piri, tarixi Naxçıvanla bağlı olan Buğakar piri və imamzadələrin mahiyyəti, inşa tarixi haqqında bəhs olunur. “Naxçıvan buzxanaları” kitabında muxtar respublika ərazisində zəmanəmizədək gəlib çıxan buzxanalardan bəhs edilir və orta əsrlər zamanı soyuducu kimi istifadə edilmiş buzxanaların növləri, əhəmiyyəti, memarlıq xüsusiyyətləri, inşa tarixləri hazırda tarix-memarlıq abidələri kimi qorunub saxlanılması ilə bağlı məlumat verilir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən kitabların nəşri də 2018-ci ildə diqqətdə saxlanılmış, Nikolay Ostrovskinin “Polad necə bərkidi”, Yusif Balasaqunlunun “Qutatqu bilik”, Məhəmməd Tağı Sidqinin “Məktəb hekayələri”, Reyhan Mirzəzadənin “A.S.Qriboyedov: Şair-diplomat” kitabları yüksək tirajla nəşr olunmuşdur.

2018-ci il mayın 21-24-də Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş dördüncü beynəlxalq rəsm festivalı keçirildi, festival iştirakçıları dəyərli əsərlər yaratdılar. Bu əsərlərdən ibarət olan “Naxçıvan – bəşəriyyətin beşiyi” IV Beynəlxalq Rəsm Festivalının albom-kataloqu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə nəşr edilib. Nəfis tərtibatda hazırlanan kataloqda festivalda iştirak edən 63 rəssam haqqında qısa bioqrafik məlumatlar və festivalda çəkilmiş rəsm əsərləri yer alıb.

2018-ci il Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə yadda qaldı. Bu əlamətdar hadisə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən nəşr olunmuş “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” kitabında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış və bağlanış tədbirləri, Təşkilat Komitəsinin iclasları, keçirilən konfrans və elmi forumlar, “İslam filmləri həftəsi”, rəsm sərgiləri haqqında məlumat verilir. Həmçinin kitabda “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”ə həsr edilmiş zərf və poçt markalarının, hazırlanmış gümüş medal və döş nişanının, nəşr olunmuş kitabların və əl işlərindən ibarət sərginin fotoları yer alıb.

Ötən il publisist-politoloq Reyhan Mirzəzadənin qələmə aldığı əsərlər toplanaraq “Rus klassikləri haqqında” və “Zəka məşəli” kitabları nəşr olunmuşdur. Bu kitablarda tanınmış yazıçı və pedaqoqların keçdiyi həyat yolu və yaradıcılığından geniş bəhs olunur.

Nəşr olunan kitablar arasında təhlil və analitik materiallar da diqqəti cəlb edir. “2017-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarının xülasəsi”, “2017-ci ildə Naxçıvanın arxeoloji tədqiqi”, eləcə də “Naxçıvan” ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş 37-ci nömrəsi və azərbaycanlıların soyqırımına həsr olunmuş 36-cı nömrəsi, “Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransının materialları, “Naxçıvan Muxtar Respublikasının muzeyləri”, “Keçid dövrünün beynəlxalq əlaqələri keçmiş Qərb dünyasında” kitabları da ötən il çap olunan dəyərli nəşrlərdəndir.

Bundan əlavə, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Dövlət Televiziyası tərəfindən “Heydər Əliyev və Naxçıvan”, “Babək rayonu: dünən və bu gün”, “Rənglərin sehri”, “Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan”, “Azərbaycanlıların soyqırımı”, Azərbaycan və ingilis dillərində “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan”, “Naxçıvan mətbəxi” adlı filmlər hazırlanmışdır.

Nəşr olunmuş kitab və bukletlər, hazırlanmış sənədli filmlər muxtar respublikada tariximizin, mədəniyyətimizin və görkəmli şəxsiyyətlərimizin öyrənilməsinə, eləcə də elmi mühitin inkişafına mühüm töhfədir.

**“Şərq qapısı”**

## “Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani” mövzusunda keçiriləcək beynəlxalq konfransa hazırlıq məsələləri müzakirə edilib

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti ümumi yığıncağı keçirilib.

İclası giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında” 2018-ci il 29 oktyabr tarixli Sərəncamından irəli gələn vəzifələrdən danışıb.

Qeyd olunub ki, sözügedən sərəncam ilə təsdiq olunan Tədbirlər Planına əsasən Azərbaycanın təsəvvüf alimləri arasında xüsusi yeri olan Nemətullah Naxçıvaninin heç bir ədəbiyyatdan istifadə etməyərək yazdığı “Əl-Fəvatih-ül-İlahiyyə-Vəl-Məfatih-ül-Qeybiyyə” (Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi) üçcildlik əsərinin birinci cildi bölmə əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova tərəfindən Türkiyə türkcəsindən Azərbaycan dilinə tərcümə olunaraq çap edilib. Hazırda əsərin ikinci və üçüncü cildləri üzərində işlənilir. Bundan əlavə, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsi tərəfindən “Taleyi və sənəti” layihəsi çərçivəsində hər il işıq üzü görən məqalələr toplusunun 2018-ci il üçün olan növbəti sayca 12-ci nəşri Nemətullah Naxçıvaniyə həsr edilib. Həmin institutun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov tərəfindən Nemətullah Naxçıvaninin “Hidayətül-ixvan” (Qardaşların hidayəti) kitabı tərcümə olunaraq çapa hazırlanıb.

Daha sonra İsmayıl Hacıyev “Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani” mövzusunda beynəlxalq konfransın hazırlıq işləri və Təşkilat Komitəsinin yaradılması ilə bağlı məlumat verib.

Bölmənin Rəyasət Heyətinin qərarı ilə cari ilin iyun ayında nəzərdə tutulan konfransın keçirilməsi üçün 10 nəfərdən ibarət Təşkilat Komitəsi yaradılıb.

Sonra gündəlikdəki bir sıra elmi-təşkilati və cari məsələlərə baxılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Ötən ay muzeylərə 30 mindən çox tamaşaçı gəlib

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi bu ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrasını diqqətdə saxlamış, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmiş, muzeylərin fəaliyyəti diqqətdə saxlanılmış, muzey əməkdaşları üçün seminar-treninqlər və təcrübə məşğələləri, distant, ustad və açıq dərslər təşkil olunmuşdur. Ötən ay Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin “Xəyyam”, Babək Rayon Xalq Teatrında Məmməd Səid Ordubadinin “Beş manatlıq gəlin”, Ordubad Rayon Xalq Teatrında isə Sabit Rəhmanın “Yalan” tamaşası nümayiş etdirilmişdir.

Şərur yallılarının reyestrə alınması işi davam etdirilmiş, Şərur yallı kollektivlərinin repertuarında olan bir neçə yallının çəkilişi aparılmış və nota köçürülmüşdür. Ötən ay muzeyləri 4 min 534-ü əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 30 min 616 tamaşaçı ziyarət etmiş, muzeylərə, ümumilikdə, 143 yeni eksponat daxil olmuşdur. Muxtar respublika kitabxanalarında 81 tədbir keçirilmiş, 45 sərgi açılmış, kitabxanalara 137 adda 337 nüsxə çap məhsulu daxil olmuşdur. Kitabxanalara yeni oxucu sayı 314, oxucu gəlişi 9 min 895 nəfər olmuş, elektron kitabxanadan 375 oxucu istifadə etmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Cəlil Məmmədquluzadə — 150

# Mirzə Cəlil: Bütün nəsillərin, bütün dövrlərin yaşıdı

“Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir... Bu ola gərək hər bir qələm sahibinin amalı”...

Ədəbiyyatımızda əbədiyaşarlıq qazanmış dahi sənətkar Mirzə Cəlilin bu qiymətli sözlərinin canlı ifadəsini elə ustad yazıçının öz həyat və yaradıcılığında bütün yönləri ilə görmək mümkündür. Müəllifin istər ən kiçik hekayələrinin, felyetonlarının, məqalələrinin, məktublarının, eləcə də dram əsərlərinin hər sətrində bir işıq görürük. Böyük ədibin ürəyinin və sabaha ümidinin işığını. Bu işıq hər birimizə təlqin edir ki, Vətəni sevmək xalqı, milləti sevməkdir, doğma torpağı sevməkdir. Bu ən ali, ən bəşəri, ən ülvi hissdir. Bu, kamillikdir, mənəviyyatımızın minillik həqiqətidir.

Zaman-zaman bu hissləri yaşadanlar, bu hissləri yaşayanlar bu gün yaddaşlarda özlərinə yaşamaq hüququ qazanıblar. Ürəklərdə təsdiqləniblər.

Mirzə Cəlil şəxsiyyəti, Mirzə Cəlil vətəndaşlığı, Mirzə Cəlil ziyalılığı...

İnanmıram ki, ikinci bir hansısa qələm sahibi öz xalqını, öz millətini, öz Vətənini, öz dilini Mirzə Cəlil qədər sevə bilsin. Bu, reallıqdır. Professor Cəfər Xəndanın sözlərini xatırlayıram: “Cəlil Məmmədquluzadənin əsərlərində... böyük vətənpərvərlik ruhundan doğan bir lirika da vardır. Bu lirika bəzən gülüşlə birləşsə də, bu gülüş göz yaşları



arasından doğan gülüşdür”.

İnanmıram ki, hansısa yazı-pozu adamı Mirzə Cəlil kimi dəlicəsinə sevdiyi xalqının dərdlərini, ağrılarını belə çılpaqlıqla, yanarlılıqla qələmə alsın. Bu da heç bir analoqu olmayan həqiqətdir.

Qələmə aldığı əlyazmalarını sobaya basıb yandıranda Mirzə Cəlilin çəkdiyi ağrılar, əzablar o əsərləri yazarkən çəkdiyindən çox-çox artıq idi.

O əsərlər bu gün özünə əbədilik qazanmış “Ölülər”, “Anamın kitabı”, “Poçt qutusu”, “Qurbanəli bəy”, “Azərbaycan” əsərləri ilə yanaşı, milli ədəbi xəzinəmizi, şübhəsiz ki, daha da zənginləşdirəcəkdi.

Bu gün həmin hissləri yaşamaq nə qədər ağırdırsa, ədəbiyyatımızın itirdiyi ondan ölçüyəgəlməz qədər ağırdır. Belə böyük itkinin yerini doldurmaq bu gün ilahinin də qüdrətindən uzaqdadır.

Vətən yalnız coğrafi məkan idimi Mirzə Cəlil üçün?

“Dünyalar titrədi, aləmlər mayallaq aşdı, millətlər yuxudan ayılıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina eləməyə üz qoydular. Bəs sən hardasan, ay biçarə Vətən? Ax, unudulmuş Vətən. Gəlin, gəlin, ey unudulmuş Vətənin cırıq-mırıq qardaşları... Niyə sakitsiniz, ey mənim lüt-üryan qardaşlarım? Sizi deyib gəlmişəm. Sizi deyib gəlmişəm”.

... Kim idi Mirzə Cəlil üçün millət, xalq?

Gülbaharmı, Nazlımı, İsgəndərmi, Novruzəlimi?

Yoxsa Şeyx Nəsrullah dünyası, Qurbanəli bəylər?

Mirzə Cəlilin Gülbahara, Nazlıya, İsgəndərə, Novruzəliyə olan məhəbbəti dünyanın ən uca, ən ülvi, ən munis məhəbbətidir.

Novruzəlilər də, usta zeynallar da Mirzə Cəlilin özününkülər idi. Burada dahi yazıçının “Anlamaq dərdi” yada düşür. Torpaq kimi bölünməyimizdən əvvəl içimizdə neçə-neçə yerə bölünməyimizi böyük ustad yana-yana qələmə alırdı. Onun elə böyüklüyü də ondaydı ki, bizim hamımızın gördüyümüzü, lakin dediyimizi və ya deyə bilmədiyimizi, ola da bilsin demək istəmədiyimizi qələmə alırdı.

Mirzə Cəlil milləti olduğu kimi gördü.

Mənəvi yoxsulluğun, cəhalətin, nadanlığın, yad təsirlərə uymuş milli cılızlığın tüğyan etdiyi bir dövrdə özünüdərkin kamillik zirvəsindən böyük ustad xalqı seyr edirdi, düşünürdü: “Bu millət öz dilinə, öz kökünə niyə belə baxır? Bu milli dəyərlər tək mənə, sənə, ona məxsus deyil axı, bütün bir xalqa məxsusdur. Ata-babalarımız onları bizə əmanət veriblər. Əmanətə beləmi baxarlar? “Dilsiz xalq olmayan millətin” dilinə o milli “intelligentlər” niyə nankorluqla yanaşırlar?” Cavab tapa bilmirdi; yenə gücü qələminə çatırdı ki, ürəyindən keçənləri kağıza köçürsün.

Elə bir əsərinə rast gəlmək mümkün deyil ki, orada Mirzə Cəlilin ürək yanğısı, qəlb göynərtisi hiss edilməsin. Belə də olmalıdır. Çünki mənən uca olmayanlar ucalıqdan danışa bilməzlər. Torpaq, Vətən, millət, dil haqqında ancaq Mirzə Cəlil ucalığının fövqündə dayananlar danışa bilərlər.

Xalq yazıçısı Anar yazır: “Böyük yazıçılar bütün nəsillərin yaşıdıdırlar. Cəlil Məmmədquluzadə də babalarımızın, atalarımızın mənəvi yaşıdı idi. Bizim nəsil də ona öz yaşıdı kimi, bizim bir çox problemlərimizə cavab verən müdrik qardaşı kimi baxır. Mən bilirəm, bizim nəsil də gedəcək, amma o qalacaq və oğlumun yaşıdı olacaqdır...

Və bizdən sonra gələn nəsillər onu yenidən nəşr edəcək, öz yaşıdları, müasirləri kimi tanıyacaq və övladlarına bəxş edib gedəcəklər”.

Bu gün azad, müstəqil, mənəvi tərəqqiyə çatan, milli əqidə birliyi nümayiş etdirən Azərbaycan korifey sənətkarın arzularının reallaşması, illərlə yana-yana uğrunda mübarizə apardığı ideyaların gerçəkləşməsi deməkdir. Məhz buna görə də xalqımız dahi yazıçını bu gün də böyük minnətdarlıq və dərin ehtiramla anır.

**P.S.** Bunun ifadəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında” 2019-cu il 17 yanvar tarixdə Sərəncam imzalayıb. Bu, bədii nailiyyətlərlə zəngin ədəbi irsində Azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmış dahi yazıçının şəxsiyyətinin, fəaliyyətinin və yaradıcılığının bu gün də əbədiyaşarlılığının təsdiqidir.

**Muxtar MƏMMƏDOV**

## *“Nəsimi həftəsi”* çərçivəsində silsilə tədbirlər keçirilir



*Bu il Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi qeyd olunur, 2019-cu il ölkəmizdə “Nəsimi ili” elan edilib.*

Fevralın 11-də Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən görkəmli şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə “Nəsimi həftəsi”nə start verilib.

Həftənin proqramına uyğun olaraq fevralın 12-də Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində ssenari müəllifi Xalq yazıçısı İsa Hüseynov, rejissoru Həsən Seyidbəyli olan “Nəsimi” filminin nümayişi olub. Tarixi-bioqrafik filmin Naxçıvan çəkilişləri maraqlı məqamları ilə yadda qalıb. 1974-cü ildə Bakıda VII Ümumittifaq kinofestivalı çərçivəsində “Ən yaxşı tarixi film” mükafatına layiq görülən ekran əsərini 270 gənc izləyib.

Fevralın 13-də isə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Xalq şairi Qabilin “Nəsimi” poemasının müzakirəsi olub.

Vurğulanıb ki, şairin şah əsəri sayılan, on il ərzində ərsəyə gələn bu əsər 1976-cı ildə ulu öndər Heydər Əliyevin qərarı ilə Azərbaycan SSR Dövlət mükafatına layiq görülüb. Poemada – bu əsərə mənzum roman da deyirlər – Qabil, sözün həqiqi mənasında, böyük mütəfəkkir və dahi şairimiz İmadəddin Nəsiminin daxili, mənəvi aləmini aça bilib. Nəticədə, Qabilin “Nəsimi”sində mərdlik, bahadırlıq pafosu, ölməzlik əzmi olduqca güclü şəkildə verilib. Onun tarixi və lirik qəhrəmanı Nəsimi özünə inamda və fəlsəfi idrakında qətiyyətlidir, mənəvi keyfiyyətləri ilə əbədiyaşardır. Kitab müzakirəsində 20 gənc iştirak edib.

Dünən isə İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş “Nə? Harada? Nə zaman?” intellektual oyunu keçirilib. Oyunda 6 komanda mübarizə aparıb. Yekun nəticələrə əsasən I yeri “Buta”, II yeri “Zirvə”, III yeri isə “İstiqlal” komandası tutub.

Qeyd edək ki, qalib komandalar fevralın 16-da “Nəsimi həftəsi” çərçivəsində təşkil olunan “Nəsimi kəlamının işığında” adlı ədəbi-bədii gecədə mükafatlandırılacaqlar.

**Güntac ŞAHMƏMMƏDLİ**

## *“Ağıllı uşaq”* əyləncəli intellektual oyunu olub



*Dünən Naxçıvan şəhər 5 nömrəli uşaq bağçasında məktəbəqədər hazırlıq qruplarında olan 5-6 yaşlı uşaqlar arasında “Ağıllı uşaq” əyləncəli intellektual oyunu keçirilib.*

Oyun başlanmazdan əvvəl uşaqların iştirakı ilə hazırlanmış idmanın müxtəlif növlərini əks etdirən kompozisiya nümayiş olunub. Daha sonra Gənclər və İdman Nazirliyinin əməkdaşı İlahə Haqverdiyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Gülər Əhmədova və Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı Orxan Məhərrəmov çıxış edərək bildiriblər ki, tədbirin keçirilməsində məqsəd uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların əqli qabiliyyətlərinin və məntiqi düşüncələrinin inkişaf etdirilməsidir.

İki mərhələdən ibarət olan oyunda 4 komanda iştirak edib. Birinci mərhələdə uşaqlar butona basmaqla 55 sualı, ikinci mərhələdə isə onlara təqdim olunan 5 şəkilli sualı cavablandırıblar.

Sonda daha çox suala düzgün cavab verən “Günəş” komandası I yerə, “Ulduz” komandası II, “Ay” və “Bulud” komandaları isə III yerlərə çıxıblar. Qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və rəngli kitablar təqdim olunub.

Qeyd edək ki, 20 uşağın iştirak etdiyi intellektual oyun Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

## Ailə təsərrüfatlarının ixtisaslaşması əhəmiyyətlidir

*Şahbuz rayonunun Qızıl Qışlaq kəndində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin və Şahbuz Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Ailə təsərrüfatlarının ixtisaslaşması, yeni ailə təsərrüfatlarının yaranması mexanizmləri və müasir kənd təsərrüfatı texnikalarından səmərəli istifadə edilməsinin əhəmiyyəti” mövzusunda tədbir keçirilib.*

Ailə təsərrüfatı sahiblərinin iştirak etdikləri tədbiri rayon İcra Hakimiyyətinin nümayəndəsi Məhəmməd Bayramov açaraq rayonda bu sahəyə göstərilən dövlət qayğısı və görülmüş işlər haqqında məlumat verib.

Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Xaliq Abbasov çıxış edərək bildirib ki, muxtar respublikamızda aqrar sahəyə göstərilən hərtərəfli dövlət qayğısından bəhrələnən ailə təsərrüfatları kənd təsərrüfatının bütün sahələrində yeni-yeni uğurlara imza atırlar.

Vurğulanıb ki, Şahbuzda da ailə təsərrüfatlarının inkişafına hərtərəfli qayğı göstərilir. Bu rayon dağlıq və dağətəyi bölgədə yerləşir və muxtar respublikamızda yabanı tərəvəz və dərman bitkiləri ilə zəngin olan ərazilərdən biridir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunub. Bu gün də kəndlərdə yabanı tərəvəz və dərman bitkilərinin tədarükü sahəsində ailə təsərrüfatları fəaliyyət göstərirlər. Əhalinin bu sahəyə olan maraqları nəzərə alınaraq yabanı tərəvəz və dərman bitkilərinin toplanması, emalı, qurudulması, paketlənməsi və satışına dəstək verilməsinə hərtərəfli şərait yaradılıb.

Qeyd edilib ki, rayonda ailə təsərrüfatları meyvəçilik, tərəvəzçilik, kartofçuluq, arıçılıq, quşçuluq, heyvandarlıq və düzən ərazilərdə taxılçılıqla məşğul olurlar. Əkinəyararsız dağətəyi və yamac yerlərdə damcı üsulundan istifadə etməklə yeni meyvə bağlarının salınması və qızılgül bitkisinin əkilib-becərilməsi gələcəkdə ailə təsərrüfatlarına yüksək gəlir gətirə bilər.

Nazirliyin əməkdaşları Lalə Məmmədli heyvandarlığın inkişaf etdirilməsində mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasının əhəmiyyətindən, Səbuhi Həsənov əl əməyinin yüngülləşdirilməsində müasir kənd təsərrüfatı texnikaları və avadanlıqların gücündən səmərəli istifadə edilməsindən, Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin müdiri Niyamət İsayev məhsuldar toxum sortları ilə əkinin keçirilməsi və əkindən əvvəl toxumların dərmanlanmasının əhəmiyyətindən danışıblar.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, mütəxəssislər tərəfindən hazırlanan buklet-informasiya kitabçaları ailə təsərrüfatları sahiblərinə paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## İdmançımızın təlim-məşq toplanışı davam edir

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi millinin düşərgəsindədir.*

Belə ki, 15 yaşlılardan ibarət Azərbaycan millisinin heyətinə dəvət olunan idmançımız Gülcahan Əliyeva burada məşqlərini davam etdirir. Yanvar ayının 11-dən Bakıda təlim-məşq toplanışına cəlb olunan ağır atletimiz bu müddət ərzində yarışlarda da iştirak edib. İlk olaraq 19-27 yanvar 2019-cu il tarixlərdə Xırdalan şəhərində ağır atletika üzrə respublika yarışlarının I seçmə mərhələsində



mübarizə aparan Gülcahan Əliyeva gümüş medal qazanıb.

7-8 fevral tarixlərdə isə idmançımız qadınlar arasında keçirilən ölkə birinciliyində iştirak edib. O, burada medal qazanmasa da, göstərdiyi nəticəyə görə ümidləri doğruldub.

Qeyd edək ki, Gülcahan Əliyeva həm də birincilikdə iştirak edən ən gənc idmançı olub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Tahirova Gülcamal Ədalət qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Elxan Eldar oğlunun adına olan gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Xanlıqlar kənd sakini Əkbərov Bəxtiyar Əkbər oğlunun adına verilmiş JN-543 nömrəli “Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı” itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Telman Ağa oğlunun adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 127